# XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCAN POEZİYASINDA FOLKLOR MOTİVLƏRİ: FORMA VƏ JANR KONTEKSTİNDƏ

Dr.Şərqiyə Məmmədli*

-Contents-

1. Giriş
2. Poeziyada forma və janr özəllikləri
3. Sonuc

*Azerbaijan National Academy of Sciences Institut of Literature named after Nizami Ganjavi, associate professor, Shargiyya Mammadli
새르기애 맴매들리(아제르바이잔 과학 아카데미 니자미 갠재비 문학연구소 부교수)
maarifci_qadinlar@mail.ru

## [한국어 초록]


# 21세기 초기 아제르바이잔 시의 민속 모티브: 형식과 장르 중심으로

20세기 초 아제르바이잔 시에 나타나는 민속적 모티브는 형식, 이미지 및 장르의 맥락에서 주목받고 있다. 즉 당대 창작물 가운데 민속적 요소를 활용한 작품들이 개별 작가들의 대표작 위치를 점하고 있다.

이 시기 문학의 주된 사조인 계몽적 사실주의, 비판적 사실주의, 낭만주의 시들은 주로 전통과 창작 분야의 여러 장르를 결합하는 문제를 다루었다. 이런 의미에서 시 창작에서의 장르 활용 문제는 민속과 전통을 재해석하는 작업의 출발선에 자리한다.

시는 다른 문학 장르에 비해 장르의 다양성이 두드러지는 분야다. 이는 동방 이슬람 세계와 마찬가지로 아제르바이잔 문학에서 시가 특정 문학 분야와 달리 역사가 더 깊은 한편, 형식과 이미지 면에서 나름의 시적 색채를 띠고 있기 때문이다

후세인 자비드(Hüseyn Cavid), 압바스 새햇(Abbas Səhhət), 애흐매드 자바드(Əhməd Cavad)와 같은 유명한 아제르바이잔 시인들의 예술적 유산을 살피면 시와 민속 요소와 관련된 여러 중요한 사항을 식별하고 장르적 문제에 대한 해석을 도출할 수 있다.

20세기 초 아제르바이잔 문학에서 시의 민속적 모티브 및 이미지가 전반적으로 강화된 이유는 시대의 사회적 요구 때문이다. 또한 이 시대를 대표하는 사조 중 하나인 계몽적 사실주의의 지대한 영향도 빼놓을 수 없다. 주목할 만한 점은 민간에서 창작된 작품들에 유창하고 구체적인 사상적 표현, 언어 및 문제의 단순성 등이 풍부하게 나타난다는 것이다.

20세기 초반 아제르바이잔 시에서 전통과 혁신이라는 주제가 민속시

라는 장르, 형식, 이미지가 끊임없이 창작되는 데 중대한 역할을 했다는 사실에 주목할 필요가 있다.

**주제어**: 아제르바이잔 시, 민속학, 민속시, 아슈그 문학, 장르, 전통과 현대성

# 1. Giriş

XX yüzilin əvvəllərində Azərbaycan ədəbiyyatında folklor motivlərinin güclənməsi, xalq şeiri şəkillərinə müraciət olunmasının ardıcıl və çevik səciyyə daşıması ilk növbədə dövrün sosial tələbi kimi gerçəkləşməkdədir. Milli mətbuatın inkişafı, Rus Çarlıq imperiyasının süqutu ərəfəsində baş verən, müharibə və inqilablarla müşayiət olunan hadisələrin doğurduğu siyasi çalxantılar, ədəbiyyatın sosial problemlərə yönəlik məsələlərə diqqət yetirməsi – bütün bunlar ədəbi məfkurənin yeniləşməsini şərtləndirirdi. Cəmiyyətdə baş verən dəyişmələrin ədəbiyyata, o cümlədən poeziyaya təsir göstərməsi, onun inkişaf istiqamətlərini müəyyənləşdirməsi burdan qaynaqlanır.

Azərbaycan şeirində bəhs olunan dönəmdə istər maarifçi-realist, istərsə tənqidi-realist, istərsə də romantik təmayüllü ədəbi ənənə və novatorluq problemi həmçinin janr axtarışları ilə müşayiət olunduğundan problemin bu müstəvidə araşdırılmasını şərtləndirir. Yuxarıda bəhs olunduğu kimi, maarifçi-realist poeziya özünəməxsus ideya-estetik keyfiyyətlərə malikdir. Bu özünəməxsusluq, şübhəsiz ki, janr seçimində də özünü göstərməkdədir. Çünki şeir dilinin sadələşməsi, qaldırılan problemin diqqəti çəkməsi, oxucu auditoriyası qazanması nöqteyi-nəzərindən janrın uğurlu seçimiçöx önəmlidir.

Maarifçi realizm ədəbiyyatını "çoxəsrlik Azərbaycan ədəbi fikrinin xüsusi bir mərhələsi" kimi dəyərləndirən tənqidçi-ədəbiyyatşünas İsa Həbibəylinin qənaətincə, "Maarifçilik – Azərbaycan ədəbiyyatında yeni janrların meydana çıxmasını zəruri bir tələb kimi meydana çıxarmışdır. Yeni zaman həyatı, ictimai-mənəvi münasibətləri bütün dərinliyi ilə ifadə edən janrları tələb edirdi." [Həbibbəyli: 2017]. Şübhəsiz ki, bu

qənaətlərlə razılaşmamaq mümkün deyildir. Çünki məhz maarifçi-realist cərəyanın yaranması və güclənməsi ilə bəhs olunan dönəmdə bir çox şeir şəkilləri, o cümlədən folklordan qaynaqlanan janrlar formalaşmışdır.

Bəlli olduğu kimi, XX yüzilin əvvəllərində maarifçi-realist poeziyanın müraciət etdiyi janrlar tənqidi-realist və romantik şeirdə təsadüf olunan janr və formalardan o qədər də fərqli deyildir. Bu, hər şeydən əvvəl, dövrün və ədəbi mühitin bəlli şərtlərindən qaynaqlanmaqdadır. Çünki araşdırmaya cəlb olunan dövrdə bədii sözün yükləndiyi vətəndaşlıq missiyası tarixin heç bir dönəmində bu qədər aktual olmamış, aparıcı funksionallıq kəsb etməmişdir. Digər tərəfdən ötən əsrin əvvəllərində eyni sənətkarların müxtəlif yaradılıq üslubunda yazıb-yaratması da diqqətdən yayınmamalıdır.

Bütövlükdə XX yüzilin əvvəllərində yaranan tənqidi-realist poeziyada forma və şəkil axtarışları intensiv səciyyə daşımışdır. Bu üslubda yazıb yaradan şairlərin gündəlik həyatdan, canlı müşahidədən qaynaqlanan əsərləri millətin problemlərinə güzgü tutduğu kimi, forma və şəkil baxımından da xalq şeiri ənənələrindən qaynaqlanırdı. Lakin bəhs olunan dövrün ədəbiyyatında xalq şeiri şəkillərinə daha çox romantik üslubda yazıb yaradan şairlər müraciət edirdilər. Bütövlükdə "romantik cərəyanın nümayəndələri yazılı ədəbiyyatın folklorla qaynayıb qarışmasında müstəsna rol oynamışlar" [Теория литератур ы 2004: 139]. Bu isə heç şübhəsiz ki, "xalq şeiri üslubunda yaranan əsərlərin fikrin sərrast ifadəsinə geniş imkanlar açması, dil-üslub sadəliyinə şərait yaratması ilə bağlıdır" [Əbdülhəsənli 2008: 151].

Qədim tarixə malik olan Azərbaycan poeziyasında ötən əsrin başlanğıcında şifahi xalq şeirinin bayatı, gəraylı, qoşma, türki, nəğmə, şərqi, habelə üçlük, dördlük, beşlik kimi şəkilləri kifayət qədər yayğın

olmuşdur. Şübhəsiz ki, xalq şeiri şəkilllərinin milli poeziyada işlənilməsi yeni deyildir, ciddi ənənəyə söykənməkdədir. Xüsusilə, Azərbaycan aşıqlarının yaradıcılığında bunun zəngin örnəkləri mövcuddur [Vəliyev 1970: 219-232]. Lakin ədəbiyyat tarixinin digər mərhələləri ilə müqayisədə XX yüzilin əvvəllərində xalq şeirinə dönüş ötəri, keçici deyil, ardıcıl və sistemli səciyyə daşımışdır. Məhz bu dönəmdə xalq şeiri şəkillərində yaranan poeziya örnəkləri bəhs olunan istiqamətin bütövlükdə ədəbiyyatın təməlində oturuşmasını təmin etmiş, ədəbi dilin saflaşmasında və milliləşməsində müstəsna roy oynamışdır.

## 2. Poeziyada forma və janr özəllikləri

XX yüzil Azərbaycan poeziyasının janr-forma axtarışları bağlamında dəyərləndirilməsi digər zəruri məqamların üzə çıxarılması baxımından da əhəmiyyət doğurur. İstər xalq şeiri şəkillərinə, istər divan ədəbiyyatının janrlarına, istərsə də yeni poetik formalara müraciət yalnız ənənə və novatorluq problemi ilə məhdudlaşmamış, həmçinin köhnə və yeni şeir məsələsinə diqqətin yönəldilməsinə gətirib çıxarmışdır.

Bəlli olduğu kimi, bütün dövrlərdə forma rəngarəngliyi şeir mətnlərinin yüksək bədii ifadələrlə təqdim olunması üçün poetik axtarışların yekunu kimi səciyyələnir. Bu da təsadüfi hesab edilməməlidir, çünki bədii əsərdə qaldırılan problemin daha çevik şəkildə oxucu marağını çəkməsi, ədəbi mirasa çevrilməsi üçün forma əlvanlığının önəmi sirr deyildir. Aydın məsələdir ki, bədii yaradıcılıq prosesində formanın təkmilləşdirilməsi mahiyyətcə məzmunun kamilləşməsi anlamını ifadə edir.

Forma əlvanlığını şərtləndirən amillərin mühüm bir qismi isə janr axtarışları ilə gerçəkləşir. Təsadüfi deyildir ki, ənənə və novatorluq problemini səciyyələndirərkən janr məsələsi diqqət mərkəzinə çəkilir, bir çox hallarda ədəbi-nəzəri təhlillər janr prinsipi üzrə aparılır.

Şübhəsiz ki, hər hansı bir əsərin bədii-estetik özəlliyi bilavasitə onun janrı ilə həmahəng olur. Başqa sözlə, müraciət olunan mövzu, təlqin olunan ideya, qaldırılan problemdən asılı olmayaraq bədii əsərin, o cümlədən şeirin yazılışında janr uyğunsuzluğu mətnin tamlığına, onun sənət örnəyi kimi kamilliyinə gerçək mənada ciddi xələl gətirir.

Xatırladaq ki, XX yüzilin əvvəllərində Azərbaycan romantik şeirinin təmsilçiləri sırasında Hüseyn Cavidin poeziyası janr müxtəlifliyi, forma rəngarəngliyi, həmçinin yazı tərzinin fərqliliyi ilə seçilməkdədir. Görkəmli ədib mövzu və problem məsələsində olduğu kimi, həmçinin yazılarının forma-şəkil baxımından yeniliyinə xüsusi önəm vermişdir. Akademik Məmməd Cəfər bununla bağlı yazır: "Hüseyn Cavid şeirin bütün janrlarında (mənzum dramlarında, poemalarında, süjetli şeirlərində, siyasi-ictimai və fəlsəfi parçalarında, lirikasında, klassik şeirin və şifahi xalq şeirinin bütün əsas şəkillərindən) üçlük, dördlük, qoşma, bayatı, rübai, məsnəvi, beşlik, müxəmməs (altılıq), müsəddəs, qəzəl, tərkibbənd, müstəzad, türki, nəğmə, şərqi və sairə..." [Cavidi xatırlarkən 2012: 254-255].

Yaradıcılıq üslubu baxımından divan ədəbiyyatına bağlı olan Hüseyn Cavidin (1882-1941) şərqi, türkü, nəğmə kimi xalq şeiri türlərində qələmə aldığı əsərləri onun poeziyasının forma və janr əlvanlığını şərtləndirməkdədir. Ədibin bu kimi janrlara çevik münasibəti Azərbaycan ədəbiyyatında şeir dilinin xeyli dərəcədə sadələşməsinə, ərəb-fars tərkiblərindən xilas olmasına əhəmiyyətli dərəcədə təkan

vermişdir. Lakin bir məsələyə diqqət yetirmək lazımdır ki, Hüseyn Cavidin qələmə aldığı şərqi və türkülərin bir qismi “klassik şeir şəkillərində yazılıb”, şair “klassik ədəbiyyat ənənələrindən qidalanan bu şeir formalarından məharətlə bəhrələnməklə əsərlərində rəngarəngliyi təmin etmişdir” [Hüseynli 2019: 172].

Maraqlıdır ki, Hüseyn Cavid ənənəvi heca vəznində yaranan poeziyanın forma, şəkil baxımından zənginləşməsində də müstəsna xidmətlərə malik sənətkarlardan biridir. Çünki “H.Cavidə qədər Azərbaycan şeirində heca vəzninin onikilik, ondördlük, onbeşlik, onaltılıq kimi şəkilləri onun yaradıcılıq səyləri nəticəsində yeni yaşarlılıq kəsb etdi” [Ənvəroğlu 2008: 233]. Ənənəyə daima yaradıcı şəkildə yanaşması onun şeirlərinin məzmun yeniliyini təmin etdiyi kimi, forma baxımından novatorluğunu da şərtləndirmişdir.

Şairinşifahi ədəbiyyatın ən populyar janrlarından olan qoşma türündə qələmə aldığı “Bənim Tanrım” şeiri istər məzmun, istərsə də forma-şəkil baxımından onun poetik yaradıcılığında əhəmiyyətli yerlərdən birini tutur.

Hər qulun cahanda bir pənahı var,
Hər əhli-halın bir qibləgahı var,
Hər kəsin bir eşqi, bir ilahı var,
Bənim tanrım gözəllikdir, sevgidir [Cavid 2005: 130]

Şeirdə müəllifin öz tanrısının gözəllik, sevgi olduğunu orijinal poetik tərzdə ifadə etməsi əsərin ideya-estetik təməlini şərtləndirir. Şübhəsiz ki, şeirin aşıq poeziyasının yayğın formalarından olan qoşma janrında qələmə alınması onun dil-üslub sadəliyini təmin etmişdir.

Gözəl sevimlidir, cəllad olsa da;

Sevgi xoşdur, sonu fəryad olsa da;
Uğrunda bənliyimbərbadolsa da,
Son dildarım gözəllikdir, sevgidir [Cavid 2005: 130]

Şairin beş cildlik "Əsərləri" toplusuna yazılmış "Hüseyn Cavidin yaradıcılığı" adlı ön sözün müəllifi tənqidçi Yaşar Qarayevin fikirincə, "qoşma janrında yazılmış bu şeirdə Hüseyn Cavid Füzuli poetik məktəbinin birbaşa varisi kimi çıxış edir. "Sevgisiz bir başda əqrəblər gəzər" poetik ifadəsi Füzulinin Həbibiyə yazdığı təxmisindəki "kəlləmin sümükləri içində əqrəblər məskən saldıqda belə sənin məhəbbətini unutmaram" anlamlı misraları çox xatırladır" [Cavid 2005: 10].

Hüseyn Cavidin "Çoban türküsü" şeiri də qoşma janrında qələmə alınmış mükəmməl bədii örnəklərdən biridir. Şifahi xalq şeirinin bədii özəlliklərini əks etdirən bu yazı yalnız şairin yaradıcılığında deyil, bütövlükdə dövrün poeziyasında diqqəti çəkən nümunələrindən biri kimi dəyərləndirilə bilər.

Açmasın çiçəklər, gülməsin güllər,
Ötüşməsin şirin dilli bülbüllər,
Dərdim çoqdur, ellər, ellər, ay ellər!
Yar-yar deyib gecə-gündüz ağlarım [Cavid 2005: 74]

Bəhs olunan dövrün poeziyasında janr özünəməxsusluğu baxımından Abbas Səhhətin (1894-1918) "Ninni" adlı şeiri də diqqəti çəkir. Ananın dilindən körpəsinə müraciətlə yazılmış bu şeir sadəcə övlad sevgisini ifadə edən poetik düşüncə ilə məhdudlaşmır, eyni zamanda, sosial dəyər və məzmun daşıyır.

Yavrum, uyu! Quzum uyu! Ağlama,
Yaralıdır köksüm, bir də dağlama.

Annənə bir az da olsa şəfqət et,
Xəstə yavrum, yetər bunca, rahət et [Səhhət 2005: 83]

Abbas Səhhətin uşaq əsərləri içərisində xüsusi yer turtan "Ana və oğul" şeiri altılıq türündə qələmə alınmışdır. Ananın övladına nəsihəti səpkisində yazılan şeirin mövzusu, dil-üslub sadəliyi kimi, poetik ritmi və ahəngi də diqqəti çəkməkdədir.

Gün çıxıb dağü daşa nur səpər,
Hamı dünyada çalışmağı sevər.
Hərə bir səmtə gedər əhli-hünər.
Ana övladına şəfqətlə deyər:
Yatma bu payədə rahət, a çocuq!
Etmə tənbəlliyi adət, a çocuq! [Səhhət 2005: 157]

Abbas Səhhətin qələminə məxsus "Cücələr", "Quşlar" adlı şeirləri uşaq nəğməsi kimi düşünülmüş təkrarsız poetik nümunələrdəndir. Oynaq, ahəngdar, sadə üslubda yazılmış şeirlərin yarandığı dönəmdə diqqəti çəkməsi, ayrı-ayrı tədqiqatlarda uşaq ədəbiyyatının kamil örnəklərindən biri kimi dəyərləndirilməsi təsadüfi deyildir.

Cücələrim bəzəklidir,
Bəzəklidir, düzəklidir,
Sarı, çil-çil, hər rənglidir
Yeyər, içər cücələrim,
Doyub qaçar cücələrim [Səhhət 2005: 158]

Şairin "Quşlar" şeiri də bənzər poetik üslubun, eyni dəst-xəttin məhsulu kimi diqqəti çəkməkdədir. Şeirin folklor motivlərdən yararlanaraq yazılışı onun bədii özəlliyini şərtləndirməkdədir.

Quşlar, quşlar, a quşlar!
Qaranquşlar, a quşlar!
Cəh-cəh vurun burada,
Gah yerdə, gah yuvada.
Qonun bu tək budağa,
Çox getməyin uzağa [Səhhət 2005: 161]

Abbas Səhhətin xalq şeiri tərzində qələmə alınmış "Güllərin bəhsi" əsəri forma-şəkil özünəməxsusluğu ilə şairin yaradıcılığında xüsusi yerlərdən birini tutur. Burada müəllif qızılgül, ağ zanbaq və şəbbu çiçəyinin bəhsi – mübahisəsi fonunda maraqlı, yaddaqalan poetik dialoq, bədii lövhə yaratmışdır. Forma baxımından M.Füzulinin "Meyvələrin söhbəti" əsərini xatırladan bu şeirdə müəllif alleqorik səpkidə hər bir çiçəyi öz dili ilə danışdırmış, onların fərqli keyfiyyət cizgilərini aşkarlamağa çalışmışdır.

XX yüzilin əvvəllərində Azərbaycan poeziyasında Əhməd Cavadın (1892-1937) xalq şeiri üslubunda yazdığı əsərləri, xüsusilə bayatı, qoşma və gəraylıları bədii sənətkarlıq baxımından diqqəti çəkir. Şairin müraciət etdiyi xalq şeiri şəkilləri içərisində sayca bayatılar çoxluq təşkil etməkdədir. Lakin şairin qələminə məxsus olan bayatıların 1977-ci ildə "Elm" nəşriyyatı tərəfindən buraxılan "Bayatılar (XVII-XX əsrlər)" kitabında onun tərəfindən Zaqatala və Balakəndə toplanıldığı qeyd olunmuşdur. Əslində isə bu bayatılar ənənəvi şəkildə folklor nümunələri kimi dəyərləndirilən toplama materialları olmayıb, Əhməd Cavadın müxtəlif illərdə özünün qələmə aldığı əsərlərdir. Əlbəttə, bayatılarla tanış olduqca istər onların məzmunu, istərsə dil-üslub, istərsə də forma-sənətkarlıq xüsusiyyətləri bunu çətinlik çəkmədən aşkarlamağa imkan verir.

Bir cüt quş var gül üstə,
Bir cüt göz var yol üstə.
Tanrım, məni öldürmə,
Toyum vardır il üstə! [Cavad 2005: 157]

Qənaətlərimizin doğruluğunu sübut etməküçün başqa bir örnəyə diqqət yetirək:

Tambur qalır siminə,
Düşmüşəm həvəsinə.
Bir neçə mahnı deyim,
Dostumun həvəsinə. [Cavad 2005: 156]

Əhməd Cavadın qələminə məxsus, çeşidli dönəmlərin məhsulu olan “Səhər-səhər”, “Olmaz”, “Mən tapmışam”, “Dönür”, “Bir gün”, “Şükriyyə üçün”, “Qurban olduğum”, “Gəncədən gəlirəm”, “Gəlin”, “Yaralı quş”, “Sən”, “Qaldı”, “Dan ulduzu”, “İmdad”, “Axşamlar”, “Yazıq” qoşmaları, “Gözüm gördü, könlüm sevdi”, “Qaldı”, “Beşik”, “Nə gördümsə”, “Mayıs”, “Aşıqın dərdi”, “Çırpınırdın Qara dəniz” adlı gəraylı janrında yazılmış şeirlər yalnız onun yaradıcılığının deyil, ümumən XX yüzilin əvvəllərində Azərbaycan poeziyasının kamil bədii nümunələri kimi dəyərləndirilməkdədir.

Müəllifin Şəmkirli Hüseynə bənzətmə kimi qələmə aldığı “Səhər-səhər” rədifli şeiri dil-üslub sadələyi, fikrin aydın, sərrrast şəkildə ifadə tərzi ilə seçilməklə onun digər əsərlərindən seçilir.

Güllərin üstündə parlayan şehdi,
Qəlbimdən keçənlər nə sərin mehdi!
Gözümə görükən qövsü-qüzehdi,
Hicran qubarını sil səhər-səhər! [Cavad 2005: 25]

Əhməd Cavadın Yəhya bəy Dilqəmə oxşatma tərzində yazdığı “Olmaz” rədifli qoşması şairin fərdi üslubuna uyğun eyni bədii ovqat və poetik ahəng sərgiləməkdədir. Burada məzmun dərinliyi ilə yanaşı, forma-şəkil özünəməxsusluğu da diqqəti çəkir.

Göydə şimşək kimi çaxdım, ölmədim,
Özümü yandırıb-yaxdım , ölmədim!
Yoluna, izinə baxdım , ölmədim,
Məcnunu bir belə sındırmaq olmaz! [Cavad 2005: 24]

Diqqətəlayiq cəhətlərdən biri budur ki, Əhməd Cavad ənənəvi qoşma janrının poetik qəlib və ölçülərinə olduğu kimi əməl etməmiş, bəzi hallarda ənənəvi şəklə novator çalarlar gətirmişdir. Belə ki, şairin bəzi qoşmalarında ilk bənddən öncə şeirin əsas ideyasını əks etdirən qoşa misraya təsadüf olunur. Müəllifin “Yaralı quş”, “İmdad” və digər şeirləri bu baxımdan diqqəti çəkir. Örnək üçün “Yarlı quş” şeirinə diqqət yetirək:

Yaralıdır könlüm quşu, yaralı,
Yaralandı yazıq şair olalı!

Bir dərinlikdə ki, hər düşən çıxmaz,
Qurtulmaq istəyir, qanad yaramaz!
İmdadına gələn ümidində naz,
Yaralıdır könlüm quşu, yaralı! [Cavad 2005: 101]

Əhməd Cavadın sonralar ona populyarlıq qazandırmış “Gözüm gördü, könlüm sevdi” şeiri isə gəraylı janrında yazılmış orijinal, bənzərsiz bədii örnəklərdən biri kimi diqqəti çəkir. Sevimli həyat yoldaşı Şükriyyə xanıma həsr etdiyi bu şeir ədibin xalq şeiri tərzində qələmə

aldığı digər əsərlər kimi sadə, aydın bir dildə yazılmışdır:

Batum əski Qız qalası,
Batum yurdun göz qalası!
Xaqanımın öz qalası,
Səndə doğub Şükriyyəm, hey! [Cavad 2005: 29]

Əhməd Cavadın şərqi janrında jazdığı əsərlər də poetik özünəməxsusluğu ilə maraq doğurur. Onun “Balalarıma”, “Oyan” adlı şeirləri bu şeir türünün bənzərsiz nümunələri kimi dəyərləndirilə bilər. Şairin şərqiləri içərisində uşaqlar üçün yazdığı “Balalarıma” rədifli poetik örnək daha çox seçilir. Şərqi janrına xas olan oynaqlıq, ahəngdarlıq bu şeirdə özünü büruzə verir.

Toplayıb bir dəstə çiçək
Di gəlin məktəbə gedək.
Tənbəlliyə lənət edək,
Oldu bahar gülə-gülə!
Gəldi bahar gülə-gülə! [Cavad 2005: 29]

Əhməd Cavadın ikilik, üçlük, dördlük səpkisində yazdığı əsərləri də xalq şeiri şəkilləri tərzindədir. Bu şeirlərdə müəllif daha çox obrazlı fikrin sərrast şəkildə ifadəsinə çalışmışdır. Şairin beşlik səpkisində yazdığı şeirlərinin diqqəti çəkən məqamlarından biri hər bəndin ikici misrasının sonda təkrarlanmasıdır. Şübhəsiz ki, bu forma müəllifin poetik yaradıcılığına məxsus yeniliklərdən biri kimi səciyyələndirilə bilər.

Deyirlər, gözəllik gəldi-gedərdir,
Gözəllik odur ki, duyanı olsun!
Gözəllik odur ki!.. Yoxsa, hədərdir,

Başını bu yolda qoyanı olsun!
Gözəllik odur ki, duyanı olsun! [Cavad 2005: 36]

Yaradıcılığının sonrakı dönəmlərində də Səməd Vurğunun əsərlərində bu şeir şəklinə çevik şəkildə müraciət olunmuşdur ki, bütün bunlar şairin davamlı olaraq folklordan qaynaqlandığını və yaradıcı şəkildə bəhrələndiriyini göstərməkdədir.

## 3. Sonuc

Sonuc olaraq qeyd edə bilərik ki, XX yüzilin əvvəllərində Azərbaycan poeziyasında folklor motivləri qabarıq, görümlü şəkildə ifadəsini tapmış, xalq şeirinin forma və janrlarına davamlı olaraq müraciət olunmuş, bu isə bütövlükdə şeir dilinin sadələşməsini, saflaşmasını, mürəkkəb, anlaşılmaz ərəb-fars tərkiblərindən təmizlənməsini şərtləndirmişdir. Başqa sözlə, ədəbi dilin sadələşməsi birmənalı şəkildə dövrün poeziyasının folklor qaynaqlarına yetərincə bağlı olmasından irəli gəlir.

Bu dönəmdə bədii axtarışları ilə daha çox diqqəti cəlb edən Abbas Səhhət, Hüseyn Cavid və Əhməd Cavadın əsərləri xalq ədəbiyyatı ənənələrinin yaşadılması və ondan yaradıcı şəkildə bəhrələnilməsi baxımından maraq doğurur. Bu şairlərin divan poeziyası ilə yanaşı, xalq ədəbiyyatı janrlarına müraciət etməsi təsadüfi sayılmamalı, həmçinin dövrün sosial tələbi kimi dəyərləndirilməlidir. Xüsusilə, şərqi, türkü, nəğmə, qoşa, gəraylı, bayatı və başqa xalq şeiri türlərində qələmə alınan əsərlərin yaranması bunun canlı örnəyidir.

Poeziya üçün səciyyəvi olan və bəhs olunan dönəmdə diqqəti çəkən məqamlardan biri də budur ki, yaşanılan ictimai-siyasi proseslər

fonunda ənənəvi janrların önəmli qismi bir sıra yeni poetik keyfiyyətlər qazanmış, bu isə yazılan bədii örnəklərin folklor motivləri ilə zənginləşməklə yeni məzmun kəsb etməsi ilə şərtlənmişdir.

Təhlillərdən aydın göründüyü kimi, XX yüzilin əvvəllərində Azərbaycan poeziyasında müxtəlif ədəbi istiqamətlərin mövcudluğu mövzu, məzmun və forma baxımından rəngarəngliyə səbəb olmaqla yanaşı, xalq ədəbiyyatı ənənələrindən də bəhrələnilməsini təmin edən amillərdən biri kimi səciyyələnir.

## [Ədəbiyyat]

Cavad Əhməd. Seçilmiş əsərləri, Bakı: “Şərq-Qərb” nəşriyyatı, 2005, 296 s.

Cavid Hüseyn. Əsərləri, Beş cilddə, I cild, Bakı: “Lider” nəşriyyatı, 2005, 255 s.

Cavidi xatırlarkən. Məqalələr və xatirələr, II nəşr, Tərtib edəni İsgəndər Orucəliyev, Bakı: “Zərdabi LTD” nəşriyyatı, 2012, 592 s.

Əbdülhəsənli Tofiq. Müasir Azərbaycan poeziyası: mövzu, janr və üslub problemləri, Bakı: “Elm” nəşriyyatı, 2008, 268 s.

Ənvəroğlu Himalay. Azərbaycan şeirinin poetikası, Bakı: “Nurlan” nəşriyyatı, 2008, 385 s.

Həbibbəyli İsa. Maarifçilik və realizm. “525-ci qəzet”, 18 dekabr 2017.

Hüseynli Hüseyn. “İnsan gah bir şeytan, gah bir mələkdir”, “Azərbaycan” jurnalı, 2019, № 12, s.170-174.

Səhhət Abbas. Seçilmiş əsərləri, Bakı: “Lider” nəşriyyatı, 2005, 456 s.

Vəliyev Vaqif. Azərbaycan şifahi xalq ədəbiyyatı, Bakı: ADU nəşriyyatı, 1970, 439 s.

Теория литературы. Под редакцией Н.Д.Тамарченко, В 2 томах, том 1, Москва: Издательство “Академия”, 2004, 513 с.

접수일: 2021.12.10. 총평일: 2021.12.22. 게재확정: 2021.12.27. 무심사 게재

[ABSTRACT]

## FOLKLORE MOTIVES IN AZERBAIJAN POETRY AT THE BEGINNING OF THE XX CENTURY: IN THE FORM AND GENRE CONTEXT

Shargiyya Mammadli(Azerbaijan National Academy of Sciences Institut of Literature named after Nizami Ganjavi)

In the early twentieth century, folklore motifs in Azerbaijani poetry gained more attention in the context of form, image and genre. Art samples written with the use of images of folk poetry occupy an important place in the works of individual artists. In this period, the problem of genre in relation to the tradition of enlightenment-realist, critical-realist and romantic poetry, which are the main creative directions of literature, was addressed. In this sense, genre issues are at the forefront of poetry's approach to folklore traditions and their creative use.

Compared to other literary genres, poetry is distinguished by its genre diversity. This is due to the fact that in Azerbaijani literature, as in the Eastern world, poetry has more ancient roots than in certain literary genres, on the other hand, it has its own poetic nuances in terms of form and image.

In the context of the artistic heritage of such prominent creators of Azerbaijani poetry as Huseyn Javid, Abbas Sahhat, Ahmad Javad, the interpretation and solution of the problem allows us to identify a number of important points related to folklore sources and draw the necessary conclusions.

In general, the intensification of the appeal to folklore motifs and images of folk poetry in Azerbaijani literature in the early twentieth century is characterized as a social requirement of the time. Also, the significant influence of enlightenment-realism, one of the leading

currents of the period, should not be forgotten. It is noteworthy that in the works created directly from folklore, there are wide opportunities for fluent, concrete expression of ideas, simplicity of language and style.

At the beginning of the twentieth century, there was a serious need to focus on the fact that the issues of tradition and innovation played an important role in the basis of the constant appeal to the genre, form and images of folk poetry in Azerbaijani poetry.

Key words: Azerbaijani poetry, folklore, folk poetry, ashug literature, genre, literature tradition and modernity

[Özət]

XX yüzilin əvvəllərində Azərbaycan poeziyasında folklor motivləri forma, şəkil və janr kontekstində daha çox diqqəti çəkməkdədir. Başqa sözlə,ayrı-ayrı sənətkarların yaradıcılığında xalq şeiri şəkillərindən bəhrələnilməklə yazılmış bədii örnəklər aparıcı yer tutmaqdadır. Bəhs olunan dönəmdə ədəbiyyatın başlıca yaradıcılıq istiqamətləri olan maarifçi-realist, tənqidi-realist və romantik təmayüllü poeziyanın ənənəyə münasibətində əsas etibarilə janr problemindən çıxış edilmişdir. Bu mənada poeziyada folklor ənənələrinə üz tutulmasının, ondan yaradıcı tərzdə bəhrələnmənin təməlində ilk növbədə janr məsələləri ilk mövqedə dayanır.

Başqa ədəbi növlərlə müqayisədə şeir janr nöqteyi-nəzərindən çeşidliliyi, tür müxtəlifliyi ilə xeyli dərəcədə seçilməkdədir. Bu, bütün Şərq-islam dünyasında olduğu kimi, Azərbaycan ədəbiyyatında da şeirin bəlli ədəbi növlərdən fərqli olaraq daha əski köklərə dayanmasından irəli gəlirsə, digər tərəfdən onun forma və şəkil baxımından özünəməxsus poetik çalarlara malik olmasından qaynaqlanır.

Azərbaycan poeziyasının Hüseyn Cavid, Abbas Səhhət, Əhməd Cavad kimi görkəmli yaradıcılarının bədii irsi kontekstində problemin şərhi və çözümü folklor qaynaqları ilə bağlı bir sıra önəmli məqamların aşkarlanmasına və zəruri qənaətlərə gəlməyə imkan verməkdədir.

Bütövlükdə XX yüzilin əvvəllərində Azərbaycan ədəbiyyatında folklor motivlərinə və xalq şeiri şəkillərinə müraciətin intensivləşməsi dövrün sosial tələbi kimi səciyyələnir. Həmçinin burada dönəmin aparıcı cərəyanlarından olan maarifçi-realizmin əhəmiyyətli təsiri unudulmamalıdır. Bilavasitə folklordan qaynaqlanaraq yaranan əsərlərdə fikrin, ideyanın səlis, konkret ifadəsinə, dil-üslub sadəliyinə geniş imkanlar açıldığı diqqəti çəkməkdədir.

XX yüzilin əvvəllərində Azərbaycan poeziyasında xalq şeirinin janr, forma və şəkillərinə sürəkli müraciətin təməlində ənənə və novatorluq məsələlərinin önəmli rol oynadığı ilə bağlı məqamlar üzərində

dayanılmasına ciddi ehtiyac duyulur.

Açar sözlər: Azərbaycan poeziyası, folklor, xalq şeiri, aşıq ədəbiyyatı, janr, ənənə və novatorluq